

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 43 (21.704)

*1 mart 2017-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Pakistan İslam Respublikasına səfərə gedib.

* * *

Fevralın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin təkbətək görüşü olub.

Səmimi şəraitdə keçən görüşdə Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin 2015-ci ildə Azərbaycana səfəri məmnunluqla xatırlandı. Pakistan Prezidenti Azərbaycana bu səfərdən xoş təəssüratlarla ayrıldığını bildirdi.

Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu qeyd edildi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Kəşmir problemi ilə bağlı Azərbaycanın və Pakistanın bir-birinin ədalətli mövqeyini dəstəkləməsində qətiyyət göstərdikləri vurğulandı.

Söhbət zamanı regional təhlükəsizlik və əməkdaşlıq məsələləri müzakirə olundu.

Sonra görüş geniş tərkibdə davam etdirildi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 28-də Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərif ilə təkbətək görüşü olub.

Görüşdə müdafiə və müdafiə sənayesi sahəsində konkret layihələr müzakirə olundu. Azərbaycanın Pakistanın inkişaf etmiş hərbi sənaye kompleksinin məhsullarını idxal etməsi ilə bağlı razılaşma əldə edildi. Bundan əlavə, ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılmasının vacibliyi vurğulandı, fevral ayında 20-yə yaxın Azərbaycan şirkətinin Pakistanda ixrac missiyasında olduğu və bu missiyanın Azərbaycanın Pakistana ixracının artırılması məqsədi daşıdığı qeyd edildi.

Söhbət zamanı energetika sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi, bu gün imzalanan Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında enerji sahəsində əməkdaşlıq haqqında Sazişin bu sahədə uğurlu addım olduğu vurğulandı.

## “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı 2018” loqotipinin seçilməsi ilə bağlı tədbir keçirilmişdir

Fevralın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı 2018” loqotipinin seçilməsi ilə bağlı tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir ki, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabrında Bakı şəhərində keçirilmiş altıncı konfransında qəbul edilmiş qərarla Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 iyun tarixli Sərəncamı ilə 2018-ci ildə İslam mədəniyyəti paytaxtı tədbirlərinin keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradılmışdır. Təşkilat Komitəsinin ilk iclası 2016-cı il noyabrın 25-də Naxçıvan şəhərində keçirilmiş və Tədbirlər Planı təsdiq olunmuşdur. Tədbirlər Planında nəzərdə tutulan ilk tədbirlərdən biri Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə bağlı loqotipin hazırlanması idi. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan 2018” loqotipinin hazırlanması haqqında” 2017-ci il 23 yanvar tarixli Sərəncamına əsasən Mədəniyyət və Turizm Nazirliyi və Rəssamlar Birliyi tərəfindən loqotipin hazırlanması üçün yaradıcılıq müsabiqəsi elan edilmişdir. Bu gün deyə bilərik ki, müsabiqə iştirakçıların fəallığı şəraitində keçmiş, 40-a yaxın iştirakçı tərəfindən 70-dən çox loqotip nümunəsi təqdim olunmuşdur.

Ali Məclisin Sədri müsabiqənin təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirmişdir.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək demişdir ki, müsabiqəyə muxtar respublika ilə yanaşı, həm də muxtar respublikadan kənarda yaşayan yaradıcı insanlar – rəssamlar, memarlar və tələbələr tərəfindən müxtəlif məzmunda loqotip nümunələri təqdim olunmuşdur. Loqotiplər Mədəniyyət və Turizm Nazirliyinin və Rəssamlar Birliyinin birgə təşkil etdiyi komissiya tərəfindən qiymətləndirilmişdir. Qiymətləndirmə zamanı yaradıcı yanaşma, işin təsiredici qüvvəyə malik olması və asan qavranılması ilə yanaşı, həmin loqotipin Naxçıvanın türk-islam mədəniyyəti nümunələrini, eləcə də qədim tarixini və müasirliyini əks etdirməsinə üstünlük verilmişdir. Qeyd olunan meyarları özündə əks etdirən loqotip nümunələrindən ən yaxşıları seçilərək Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə bağlı yaradılmış Təşkilat Komitəsinə təqdim olunmuşdur.

Ali Məclisin Sədri qeyd etmişdir ki, təqdim olunmuş loqotiplərdən mövzunun əhatə olunması baxımından ən uyğunu müəllifi Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Tapdıq Həmzəyev olan loqotipdir. Burada Naxçıvanın həm türk, həm də İslam mədəniyyətinin daşıyıcısı olması, Naxçıvanın qədim və müasir tarixi rəmzlərlə çatdırıla bilib.



Təklif olunan loqotipin “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı 2018” loqotipi kimi qəbul olunduğunu bildirən Ali Məclisin Sədri müəllif Tapdıq Həmzəyevə qalib olması münasibətilə təbriklərini çatdırmış və ona pul mükafatı təqdim etmişdir.

Ali Məclisin Sədri qarşıda duran vəzifələrdən danışaraq demişdir ki, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə bağlı hazırlıq işləri Tədbirlər Planına uyğun olaraq davam etdirilməlidir. Naxçıvan Şəhər İcra Hakimiyyəti günün müəyyən saatlarında “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı 2018” loqotipinin şəhərdəki monitorlarda və şəhərin müəyyən yerlərində yerləşdirilməsini təmin etsin. Mədəniyyət və Turizm Nazirliyi Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birlikdə “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı 2018” rəsmi internet səhifəsini hazırlamalı, loqotipi və Naxçıvandakı İslam mədəniyyəti abidələri haqqında məlumatları internet səhifəsində yerləşdirməlidir. Rabitə və Yeni Texnologiyalar Nazirliyi 2018-ci il üçün zərf və poçt markalarının hazırlanmasını təmin etməlidir. İqtisadiyyat Nazirliyi üzərində loqotip əks olunmuş suvenirlərin hazırlanması üçün təkliflərini verməli, 2017-ci ilin noyabrınadək bu işi başa çatdırmalıdır.

Ali Məclisin Sədri demişdir: Mədəniyyət və Turizm Nazirliyi, Dini Qurumlarla İş üzrə İdarə və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi Naxçıvan Muxtar Respublikasının İslam mədəniyyəti abidələri haqqında Azərbaycan və ingilis dillərində kitabların və bukletin nəşri üçün birgə işçi qrupu yaratmalı, muxtar respublika ərazisindəki İslam mədəniyyəti abidələri haqqında dəqiq məlumatlar toplanılmalı, kitab və bukletlərin nəşri bu ilin sonuna qədər başa çatdırılmalıdır. Dini Qurumlarla İş üzrə İdarə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birlikdə “İslamda müdrik kəlamlar” kitabının hazırlanmasını və nəşrini də 2017-ci ildə təmin etməlidir. Sənədli və televiziya filmlərinin hazırlanması da Tədbirlər Planında nəzərdə tutulmuşdur. Ona görə də Mədəniyyət və Turizm Nazirliyi Dövlət Televiziya və Radio Verilişləri Komitəsi ilə birlikdə “Naxçıvan – 2018. İslam mədəniyyəti” video çarxını və “İslam mədəniyyətinin paytaxtı Naxçıvan” televiziya filminin hazırlanmasını təmin etməli, bu zaman mötəbər mənbələrə, Tədbirlər Planına uyğun olaraq hazırlanmış kitablara istinad olunmalıdır. Tədbirlər Planına əsasən 2017-ci ildə “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı kimi” mövzusunda interaktiv dərs də keçirilməlidir. Təhsil Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birlikdə interaktiv dərsin keçirilməsini təmin etməli, Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı olması ilə bağlı gənc nəslə ətraflı və dəqiq məlumat verilməlidir. Tədbirlər Planına uyğun olaraq “Naxçıvan” Universitetinin Dinşünaslıq ixtisasının elmi-tədris bazası da İslam dinini olduğu kimi əks etdirən kitablarla zənginləşdirilməlidir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə əlaqədar aid təşkilatlar qarşılarında duran vəzifələrin icrası istiqamətində səylərini artırmalı, qarşılıqlı fəaliyyət göstərməlidirlər.

Verilmiş tapşırıqların icrasının əlaqələndirilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatına, loqotipin təqdimatının keçirilməsi isə Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyinə tapşırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı hərbi attaşesi ilə görüşmüşdür

Fevralın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı hərbi attaşesi general-mayor Zəfər Ocaqla görüşmüşdür.

Ali Məclisin Sədri yeni vəzifəsində qonağa uğurlar arzulamış, Türkiyənin milli lideri Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əlaqələrimizin inkişafına verdikləri dəyəri diqqətə çatdırmışdır. Azərbaycan və Türkiyə arasındakı münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə uğurla davam etdirildiyini qeyd edən Ali Məclisin Sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin tutduğu ədalətli mövqedən, Türkiyə Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsindəki rolundan və keçirilən birgə hərbi təlimlərdən danışmış, bunu dostluq və qardaşlıq əlaqələrinin nəticəsi kimi dəyərləndirmişdir.

Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı hərbi attaşesi general-mayor Zəfər Ocaq səmimi qəbula görə minnətdarlığını bildirmiş, dost və qardaş ölkə olan Azərbaycanın Naxçıvan Muxtar Respublikasında olmaqdan məmnunluğunu ifadə etmişdir. Naxçıvanda ordu quruculuğu sahəsində görülən işlərin qürurverici olduğunu diqqətə çatdıran Zəfər Ocaq əməkdaşlığın genişləndirilməsində səylərini artıracağını qeyd etmişdir.



**Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin mətbuat xidməti**

*1 mart Ümumdünya Mülki Müdafiə Günüdür*

## Naxçıvanda mülki müdafiənin təşkilinə və əhalinin təhlükəsiz yaşayışına diqqət artırılır

***Hər il mart ayının 1-i Ümumdünya Mülki Müdafiə Günü kimi qeyd edilir.***

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə əhalinin təbii və texnogen fəlakətlərdən etibarlı mühafizəsi istiqamətində mühüm tədbirlər görülmüşdür. Bu sahədə zəruri qanunvericilik bazası yaradılmış, 1997-ci il iyunun 10-da “Yanğın təhlükəsizliyi haqqında”, həmin il dekabrın 30-da isə “Mülki müdafiə haqqında” Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur. Son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə mülki müdafiə xidmətinin maddi-texniki bazası xeyli gücləndirilmiş, mütəxəssis hazırlığı günün tələbinə uyğun qurulmuşdur. 2005-ci il dekabrın 16-da ölkəmizdə Fövqəladə Hallar Nazirliyinin yaradılması ilə bu sahədə vahid dövlət siyasətinin həyata keçirilməsinə başlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yaradılması muxtar respublikada insanların həyatının, əmlakının baş verə biləcək təbii və texnogen fəlakətlərdən qorunması baxımından atılan mühüm addım oldu. Ötən illər ərzində böyük inkişaf yolu keçmiş Fövqəladə Hallar Nazirliyi və onun yerlərdəki strukturları üçün müasir inzibati binalar tikilib istifadəyə verilmiş, şəxsi heyətin sosial təminatının, o cümlədən mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülmüşdür. Belə ki, 2012-ci ildə nazirliyin yeni inzibati binası istifadəyə verilmiş, binada müasir xidmət şəraiti, elektron nəzarət və idarəetmə sistemləri yaradılmışdır. Həmçinin 2008-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Şöbəsinin inzibati binası, 2009-cu ildə Kəngərli, Şahbuz, Ordubad rayon şöbələri, 2013-cü ildə Şərur və Babək rayon şöbələri, 2014-cü ildə isə Sədərək rayon şöbəsi üçün yeni inzibati binalar və texniki qarajlar istifadəyə verilmiş, müasir iş şəraiti yaradılmışdır. Mülki Müdafiə Alayının təlim mərkəzində döyüş hazırlığı məşğələlərinin, təlim və məşqlərin keçirilməsi üçün hərtərəfli şərait yaradılmış, avtomobil və xüsusi təyinatlı nəqliyyat vasitələrinin saxlanması, istismarı və texniki xidmət göstərilməsi üçün müasir avtomobil parkı istifadəyə verilmişdir.

Muxtar respublika ərazisində ehtimal olunan fövqəladə hallara çevik reaksiyanın verilməsi və nəticələrinin aradan qaldırılması zamanı xüsusi riskli axtarış və qəza-xilasetmə əməliyyatlarının aparılması, zərərçəkmişlərə ilkin yardım və təxirəsalınmaz tibbi yardım göstərilməsi məqsədilə 2009-cu ildə Xüsusi Riskli Xilasetmə Xidməti yaradılmış və bu sahədə fəaliyyətin nümunəvi təşkili üçün zəruri addımlar atılmışdır. Nazirliyin mühüm fəaliyyət sahələrindən biri olan aviasiya manqasının fəaliyyətinin təmin olunması məqsədilə vertolyot alınıb gətirilmiş və Mülki Müdafiə Alayının təlim mərkəzində vertolyot meydançası tikilmişdir.

Muxtar respublika ərazisində baş vermiş təbii, texnogen hadisələrin statistikasının aparılması istiqamətində müvafiq tədbirlər həyata keçirilmiş, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi və “112” qaynar telefon xətti yaradılmışdır. Bundan başqa, muxtar respublikada tikinti sahəsində təhlükəsizliyin təmin edilməsi məqsədilə Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin nəzdində mühəndis-geoloji, sement və beton laboratoriyası yaradılaraq ən müasir sınaq avadanlıqları və cihazları ilə təchiz edilmişdir.

Həyata keçirilən quruculuq tədbirləri çərçivəsində şəxsi heyətin yaşayış və mənzil-məişət şəraitinin yaxşılaşdırılması da daim diqqət mərkəzində saxlanılır. Belə ki, Naxçıvan şəhərində nazirliyin zabitgizir ailələri üçün 48 mənzilli yaşayış binası tikilmiş və 2017-ci il yanvarın 11-də Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin iştirakı ilə şəxsi heyətin istifadəsinə verilmişdir.

Fövqəladə hallar zamanı təxliyə olunan əhalinin və zərərçəkənlərin tələbatının ödənilməsi, yaşayışın və qidalanmanın normal təşkil edilməsi, habelə ehtimal olunan radioaktiv, kimyəvi və bioloji zəhərlənmələr zamanı əhaliyə vaxtında fərdi mühafizə vasitələrinin paylanması istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilir. Belə ki, Mülki Müdafiə Alayında mülki müdafiə səfərbərlik ehtiyat anbarı yaradılmış, Şərur, Sədərək, Ordubad və Culfa şəhərlərində yaşayış binalarının zirzəmiləri təmir edilərək fərdi mühafizə vasitələri anbarı kimi uyğunlaşdırılmış və əhalinin yaş kateqoriyasına uyğun mühafizə vasitələri tədarük olunaraq rayon fövqəladə hallar komissiyalarına təhvil verilmişdir. Muxtar respublika ərazisində radioaktiv, kimyəvi və bioloji çirklənmə şəraitində nazirliyin mülki müdafiə qüvvələrinin fəaliyyət göstərməsi üçün müasirtipli radiasiya axtarış və ölçü cihazları alınıb gətirilmiş, bu cihazlarla işləyən mütəxəssislər treninqlərdə iştirak edərək müvafiq sertifikatlar almışlar. Həmçinin muxtar respublikanın mülki müdafiə səfərbərlik anbarından Şərur və Sədərək rayonları üçün ayrılmış radiasiya və kimya kəşfiyyatı cihazları daşınaraq həmin rayonların səfərbərlik anbarlarında ehtiyata qoyulmuşdur.

“Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda əhalinin təhlükəsizliyinin təmin edilməsi üzrə nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar 10 ictimai yaşayış binasının zirzəmisi əsaslı təmir edilmiş, 201 yaşayış binasının zirzəmisi təmizlənərək yararlı hala salınmışdır. Həmçinin içməli su mənbələrində monitorinqlər keçirilərək sanitar-gigiyena norma və qaydalarına əməl edilməsinə nəzarət olunmuş, çay hövzələrində selə qarşı tikilən bəndlərin, suburaxıcı və selötürücü qurğuların vəziyyəti yoxlanılmış, irihəcmli su anbarlarında bəndlərin təhlükəsizliyinə və hidrotexniki qurğuların fəaliyyət rejiminə nəzarət edilmişdir.

Muxtar respublikanın səhiyyə müəssisələrində yaradılmış ixtisaslaşdırılmış tibbi yardım briqadalarının fövqəladə hallarda hazırlığına xüsusi diqqət yetirilərək onların şəxsi heyəti ilə mütəmadi olaraq taktiki-xüsusi məşğələlər və təlimlər keçirilmişdir.

Şəxsi heyətin peşəkarlığının artırılmasında mütəxəssis hazırlığı mühüm rol oynayır. Ötən il 2 zabit Rusiya Federasiyasının Mülki Müdafiə Akademiyasına təhsil almağa göndərilmiş, 2 zabit Rusiya Federasiyasının Həştərxan şəhərində “Xəzər – 2016” beynəlxalq kompleks təlimində, 2 zabit Qəbələ şəhərində dağ alpinizmi təlimində iştirak etmişdir. Bu istiqamətdə işlər 2017-ci ilin əvvəlində də davam etdirilmiş, fevralın 20-22-də Avstriya Respublikası Federal Daxili İşlər Nazirliyindən gələn ekspertlərin iştirakı ilə Xüsusi Riskli Xilasetmə Xidmətində “Qar uçqunları zamanı axtarış işlərinin aparılması” mövzusunda taktiki-xüsusi təlim keçirilmiş və yeni alınmış axtarış xilasetmə cihazlarından istifadə qaydaları xilasedicilərə öyrədilmişdir.

*Fövqəladə Hallar Nazirliyi bundan sonra da mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində səylə çalışacaq, muxtar respublikada mülki müdafiə işi müasir tələblər səviyyəsində qurulacaqdır.*

**Naxçıvan Muxtar Respublikası
Fövqəladə Hallar Nazirliyinin
mətbuat xidməti**

## Maarifləndirici tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyində 1 mart – Ümumdünya Mülki Müdafiə Gününə həsr olunmuş “Mülki müdafiə, fövqəladə hallardan qorunma və yanğın təhlükəsizliyinin təmin olunması günümüzün zəruri tələbidir” mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbiri nazirliyin şöbə müdiri Yasin Əliyev açıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin mülki müdafiənin planlaşdırılması və təşkili bölməsi rəisinin baş köməkçisi, kapitan Rəcəb Səfərov “Naxçıvan Muxtar Respublikası ərazisində ehtimal olunan fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında Fövqəladə Hallar və Nəqliyyat nazirliklərinin rolu” mövzusunda məruzə ilə çıxış edib. Qeyd olunub ki, mülki müdafiə sülh və müharibə dövrlərində əhalinin (Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasının ərazisində olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin) və ərazinin (Azərbaycan Respublikası ərazisinin hüdudları daxilində torpaq, su və hava məkanının, istehsal və sosial təyinatlı obyektlərin, habelə ətraf mühitin) təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması məqsədilə dövlət hakimiyyəti orqanları, hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilən tədbirlər sistemidir.

Mülki müdafiənin məqsədi fövqəladə halların qarşısının alınması prosesində profilaktik tədbirlərin həyata keçirilməsi, fövqəladə hallar zamanı mümkün olan ziyan və itkilərin həcminin maksimum azaldılması, fövqəladə halların və onların nəticələrinin vaxtında aradan qaldırılmasından ibarətdir.

Sonra məruzə ətrafında Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin Mülki müdafiə qərargahının rəis müavini Əsgər Əhmədov “Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyində mülki müdafiə işinin təşkili”, Fövqəladə Hallar Nazirliyinin Yanğın nəzarəti və yanğından mühafizə işinin təşkili bölməsinin baş zabiti, daxili xidmət baş leytenantı Turan Şahhüseynov “İctimai nəqliyyatda və avtobus parkında yanğın təhlükəsizliyi üzrə müəyyən olunmuş qaydalara necə əməl etməli?” mövzularında çıxış ediblər.

Tədbirdə ayrı-ayrı mövzulara aid slaydlar nümayiş olunub.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

## Gənc nəslin ekoloji biliklərinin artırılması məqsədilə sərgi-seminarların keçirilməsi davam etdirilir

Təbiəti qorumaq, onu daha da zənginləşdirmək və əlverişli ekoloji şərait yaratmaq üçün muxtar respublikamızda uğurlu ekoloji siyasət həyata keçirilir. Bu sahədə görülən işlərin nəticəsidir ki, muxtar respublika ərazisinin 28 faizi xüsusi mühafizə olunan təbiət əraziləri kimi qorunur, regionun fauna və flora zənginliyi ildən-ilə daha da artır. Əldə olunan müsbət nəticələr beynəlxalq qurumlar tərəfindən də etiraf olunur, Naxçıvanın adı təbiətə xoş münasibət göstərən ölkələrlə birgə çəkilir.

Təbiətin qorunması sahəsində həyata keçirilən ekoloji tədbirlər hər birimizi bu işdə fəal olmağa sövq edir. Gənc nəslin ekoloji maarifləndirilməsinə də ciddi diqqət yetirilir.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən aldığımız məlumata görə, nazirliyin aidiyyəti təşkilatlarla birgə hazırladığı tədbirlər planına uyğun olaraq təhsil müəssisələrində şagird və tələbələrin ekoloji biliklərinin artırılması məqsədilə sərgi-seminarların keçirilməsi davam etdirilir. Növbəti belə tədbir fevralın 28-də Naxçıvan Tibb Kollecində keçirilib.

Tədbiri kollecin direktoru Sona Məmmədova açaraq bildirib ki, ətraf mühiti qorumaq, təbiətə qayğı göstərmək üçün təbiəti öyrənməli, ekoloji təhsilə diqqəti artırmalıyıq. Bu gün Naxçıvanın təbii zənginliklərini öyrənmək, qorumaq və təbliğ etmək hər kəsin vətəndaşlıq borcudur.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Elçin Kazımov “Naxçıvanın təbiəti, ekologiyası və bu sahədə görülən işlər” mövzusunda çıxış edərək həyata keçirilən tədbirlərdən danışıb, muxtar respublikanın zəngin bitki örtüyündən və onların mühafizə edilməsindən bəhs edib.

Tədbirdə tələbələri maraqlandıran suallar cavablandırılıb, mövzu ilə bağlı film nümayiş etdirilib.

Sonra şagirdlər Naxçıvanın zəngin təbiət nümunələrini özündə əks etdirən sərgi ilə tanış olublar.

**Xəbərlər şöbəsi**

Naxçıvanın türk-islam mədəniyyəti abidələri

# Came məscidi Atabəylər dövrünün sosial-siyasi və ideoloji həyatında mühüm rol oynamışdır

*İslam dininin yayıldığı ölkələrin hamısında olduğu kimi, Azərbaycanda, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da çoxlu ibadət yerləri – kiçik və böyük məscidlər meydana gəlmişdir. Bir sıra tarixi faktlar təsdiq edir ki, Naxçıvanda İslamın qəbulunun ilk çağlarından məscidlər yaranmışdır. Məsələn, Ordubad şəhər Came məscidinin ətrafında 1902-ci ildə bərpa işləri aparılarkən torpağın altından tapılan və hicri-qəməri təqvimi ilə 111-ci ilə (miladi 729-cu il) aid olan kitabə sübut edir ki, Naxçıvanda əhalinin İslam dinini qəbulundan sonra məscidlər inşa edilməyə başlanmışdır. Orta əsr qaynaqlarında bu məscidlər, hətta onların adları və sayı haqqında məlumatlar gəlib çatmışdır. Qaynaqlar məlumat verirlər ki, 1590-cı ildə Naxçıvan şəhərində 3 came və 10 məscid (cameyi-Qızıl Arslan, cameyi-Məhməd kətxuda, cameyi-Şərif, Ağa məscidi, Hacı Xəlil məscidi, Keçəçi məscidi, Molla Əhməd məhəlləsinin məscidi, Sultan Mahmud məscidi, Hacı Sani məscidi, Bəsri məscidi, Şeyx Əminəddin məscidi, Ətməlik məscidi, İsmayılan məscidi) olmuşdur.*



Orta əsr səyyah və tarixçiləri bölgədə olarkən ayrı-ayrı yaşayış məskənlərini, oradakı memarlıq abidələrini, o cümlədən məscidləri görmüş, özlərinin yol qeydlərində həmin abidələrdən geniş söhbət açmış, hətta bəzi yerlərdə onların sayını da göstərmişlər. Məsələn, məşhur türk səyyahı Övliya Çələbi XVII yüzillikdə Naxçıvan ərazisində olarkən Qarabağlar şəhərində (indiki Qarabağlar kəndində) 70 mehrab, minarəli 40 came, Naxçıvan şəhərində 70 came və ibadət yeri, 40 məhəllə məscidi olduğunu qeyd etmişdir.

Həmçinin səyyah səyahətnaməsində şəhərdəki məscidlərin adları, onların bəzədilməsi haqqında da maraqlı məlumatlar verərək yazır: "Şəhərdə qəribə camelər vardır ki, hər biri bir cənnət bağçasıdır. Bəzi camelər zərgərlik məmulatları, çini, mina və kaşı ilə bəzədilmişdir". Səyyahın yazdığına görə, həmin vaxt şəhərdə Əhməd paşa, Fərhad paşa, Gözəl Əli paşa, Cığaloğlu, Xadim Cəfər paşa cameləri və digər məscidlər olmuşdur.

Naxçıvan şəhərindəki məscidlərdən bəhs edən qaynaqlarda Qızıl Arslan camesi (cameyi-Qızıl Arslan) adlı məscidin adı çəkilir. Görünür, Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilmiş bu məscid Möminə xatın türbəsindən sonra, Atabəy Qızıl Arslanın zamanında tikilmiş və el arasında onun adı ilə tanınmışdır.

Naxçıvanda bizə məlum olan ən qədim məscid nümunəsi Naxçıvan memarlıq məktəbinin banisi, görkəmli memar Əcəmi Əbubəkr oğlu tərəfindən Naxçıvan şəhərində XII əsrdə inşa edilmiş Came məscididir. XIX yüzilliyin sonlarınadək mövcud olan, bizədək ancaq fotoşəkli və rəsmi gəlib çatan bu məscid istər orta əsr mənbələri, istərsə də üzərində olan kitabələr vasitəsilə elmi ictimaiyyətə bəlli olan ən qədim məscidlərdən biridir.

Bu məscid Atabəylər memarlıq kompleksinə daxil olan ən möhtəşəm memarlıq nümunələrindən biri olmuşdur. Məscid o dərəcədə möhtəşəm, gözəl və cazibədar olmuşdur ki, bu gün də öz əzəməti və gözəlliyi ilə seyr edənləri heyran qoyan Möminə xatın türbəsini kölgədə qoymuş, Naxçıvana gələn orta əsr səyyah və tarixçilərinin diqqətini özünə cəlb etmişdir. Naxçıvan şəhərində olan əcnəbilər öz yol qeydlərində və əsərlərində Atabəylər memarlıq kompleksinə daxil olan çoxsaylı abidələrin heç birindən deyil, məhz Came məscidindən söhbət açmışlar.

Bu cəhətdən fransız səyyahı Jan Tavernyenin qeydləri çox maraqlıdır. Səyyah Naxçıvan Came məscidinin möhtəşəmliyindən, gözəlliyindən söhbət açmış və onu Asiyanın ən möhtəşəm memarlıq abidələrindən biri kimi səciyyələndirmişdir: "Bu, Asiyanın ən yaxşı və gözəl məscidlərindən idi. Deyirlər ki, Nuhun qəbrinə yadigar olaraq bina edilmişdir". Eyni zamanda səyyah şəhərdə olarkən bu məscidin dağıdılmış və bərbad vəziyyətdə olduğunu da vurğulamışdır.

Qeyd olunduğu kimi, Naxçıvan Came məscidi zəmanəmizədək gəlib çatmamışdır. Onun haqqında bizə ancaq tədqiqatçıların əsərləri, XIX əsrdən yadigar qalmış fotoşəkil və XIX yüzillikdə Naxçıvana gəlmiş fransız səyyahı və arxeoloqu Jan Dyelafuanın çəkdiyi rəsm əsəri məlumat verir. Jan Dyelafua Came məscidinin şəklini çəkməklə kifayətlənməmiş, öz qeydlərində onun haqqında bəhs etmiş, hətta ehtişamına valeh olduğu Möminə xatın türbəsini onun bir hissəsi hesab etmişdir. Səyyahın yazdığına görə, o, Naxçıvanda olarkən fasadı və frizi kufi kitabələri ilə bəzədilən Came məscidi dağıdılıbmış.

Alman memarı E.Yakobstalın XIX əsrin sonlarında Naxçıvanda olarkən çəkdiyi fotoşəkil məscid haqqında təsəvvür yaratmaq baxımından daha qiymətlidir. Məhz həmin fotoşəkillər və rəsmlər əsasında Naxçıvan Came məscidi haqqında müəyyən fikir yürütmək mümkün olmuşdur.

Qeyd olunan məscid haqqında V.A.Engelqardtın XIX yüzilliyin ortalarında yazdığı məlumatlar diqqəti cəlb edir. Tədqiqatçı yazır ki, bu türk məscidi yonulmuş daşdan tağları olan nəhəng bir tikilidir. Onun daxilində gözəl oyma izləri hələ də qalmaqdadır. Binanın bir hissəsi uçaraq tökülmüş, qalan hissəsi isə daim uçmaq təhlükəsi altındadır. Məsciddən 50 sajen aralıda məscid kompleksinə daxil olan və hər biri 10 sajen ucalığında olan bir cüt minarəyə malik qapı vardır. Əvvəllər məscidlə qapı arasında çoxlu tikililər olsa da, indi onlar sıradan çıxmışlar və adamda elə fikir yaranır ki, həmin qapı yaxınlığındakı tək qülləyə (Möminə xatın türbəsinə) məxsusdur.

Ancaq qaynaqlar təsdiq edirlər ki, Atabəylər memarlıq kompleksində bir sıra möhtəşəm memarlıq abidələri, o cümlədən hökumət evi, Came məscidi, onun yanında mədrəsə, türbə və sair olmuşdur.

Memarlıq ədəbiyyatlarının verdiyi məlumatlardan aydın olur ki, müsəlman dünyasında çoxlu belə memarlıq ansamblları yaradılmış, həmin komplekslərə müxtəlif tikintilər əlavə olunmuşdur. Məsələn, İstanbulda Fateh Sultan Mehmet zamanı inşa edilmiş Fateh külliyəsinə came məscidi, 16 mədrəsə, xəstəxana, müsafirxana, imarət, karvansara, hamam, ilk məktəb, kitabxana və sair, memar Sinanın İstanbulda Haseki Hürrəm Sultan üçün inşa etdiyi Haseki külliyəsinə came məscidi, mədrəsə, sibyan məktəbi, imarət, darüş-şəfa və çeşmə daxil olmuşdur.

Ehtimal etmək olar ki, Naxçıvan şəhərindəki Atabəylər memarlıq kompleksinə də bizə məlum olan abidələrlə yanaşı, elmə naməlum olan başqa tikililər də daxil olmuş, haqqında bəhs olunan qoşa minarəli qapı – baştağ isə bu binaların məcmusundan ibarət olan Atabəylər memarlıq kompleksinə giriş qapısı olmuşdur.

Atabəylər memarlıq kompleksinə daxil olan bu məscid Naxçıvanda əzəmətli məscid olmaqla əhalinin ən çox toplaşdığı sosial-siyasi və ideoloji mərkəz kimi uzun müddət şəhərin həyatında bu cəhətdən aparıcı yer tutmuşdur. XVII əsrdə məscid dağıntıya məruz qaldıqdan sonra öz aparıcı yerini şəhərdəki digər məscidlərə vermişdir.

Naxçıvan Came məscidi zəmanəmizədək gəlib çatmadığı, orta əsr qaynaqlarında isə onun haqqında geniş məlumatlar qalmadığı üçün bu məscidin həcmi, əzəməti və sair haqqında ancaq J.Dyelafuanın rəsmi və XIX əsrdən qalma fotoşəkillərə əsasən fikir yürütmək olur. Məhz bu mənbələrə əsaslanaraq akademik Ə.V.Salamzadə yazır ki, məscidin şəkilləri onun plan quruluşu haqqında bəzi nəticələr çıxarmağa imkan verir. Şəkildəki həcm bu binanın ancaq mərkəz hissəsidir. Planda kvadrat olan bu kubik həcm rəsmlərindən göründüyü kimi, çatma günbəzlə örtülmüş, dörd divarında qoşa tağlar var. Salonun açıq tağ şəklində olan yan divarlarının quruluşu göstərir ki, məscidin mərkəz hissəsi bir tərəfdən otaqlar və keçidlərlə əhatə olunmuşdur.

Qaynaqlar və müasir tədqiqatçılar təsdiq edirlər ki, orta əsrlər zamanı şəhərlərin salınmasında və onların plan quruluşunun müəyyən edilməsində dini binalar həlledici rol oynamışdır. Şəhərlər salınarkən bu cəhətə xüsusi fikir verilmişdir. Məlumdur ki, orta əsr şəhərlərində çoxlu məscidlər olurdu. Bu məscidlərin içərisində biri və ya bir neçəsi öz böyüklüyünə və əhəmiyyətinə görə seçilsə də, onlardan biri xüsusilə fərqlənir, şəhərin baş məscidi rolunu oynayırdı. Şəhərin əsas məscidi sayılan, hökmdarların da diqqət mərkəzində olan bu məscid "Came" adlanırdı və əhalinin əsas toplanış yerinə çevrilirdi. Bəzən hökmdarların istəyindən asılı olaraq şəhərin əsas hissələrində bir neçə came məscidi olsa da, bunların içərisində biri əsas məscid olurdu.

Bütün bunları nəzərə alaraq Ə.Salamzadə yazırdı ki, bu məscidlər şəhərlərin memarlıq simasında mühüm yer tuturdu. Naxçıvan məscidinin şəhərdə tutduğu görkəmli mövqe həm onun böyük həcmi, həm də Naxçıvanın mərkəzi memarlıq ansamblına daxil olması ilə müəyyənləşirdi.

Naxçıvan, Gəncə, Şamaxı, Bərdə kimi şəhərlər haqqında əlimizdə olan məlumatlar bu şəhərlərdə böyük Came məscidi komplekslərinin XI-XII əsrlərdə və hətta XIII əsrin əvvəllərində yarandığını göstərir. Ancaq çox təəssüf ki, bu əhəmiyyətli komplekslər haqqında çox az məlumatlar gəlib çatmış, dövrümüzədək bu qəbildən çox az abidə qalmışdır. Cəsarətlə demək olar ki, bu tip məscidlərin ən əhəmiyyətlisi Naxçıvan Came məscididir.

Atabəylər memarlıq kompleksinin əsas tikililərindən biri Eldənizlər sarayı idi. Atabəylər dövlətinin idarə olunduğu bu saray, şübhəsiz, kompleksin ilk tikilisi olmuş, digər tikililər sonradan inşa edilmişdir. Atabəylər dövlətinin tərəqqisi və çiçəklənməsi dövründə hökmdar sarayının yanında çoxlu binalar inşa edilmiş, orada şəhər içərisində bir şəhərcik yaranmışdır. Bununla əlaqədar olaraq orada məscid inşa edilməsinə də ehtiyac var idi. Naxçıvan şəhərinin baş məscidi olmaq etibarı ilə bu məscid çox əzəmətli olmalı idi. Ona görə də Eldəniz hakimlərindən bu haqda göstəriş alan Əcəmi Əbubəkr oğlu belə möhtəşəm bir məscid inşa etmişdi. Məhz bu əzəmətinə və möhtəşəmliyinə görə o, digər abidələri kölgədə qoymuş və əraziyə gələn səyyahların, tədqiqatçıların diqqətini cəlb etmişdir.

Akademik Ə.Salamzadə XIX əsr şəkillərinə əsaslanaraq Atabəylər kompleksinə daxil olan abidələri müqayisə etmiş və təxmini də olsa, Came məscidinin həcmi haqqında müəyyən nəticəyə gəlmişdir. Alim bu barədə yazır: *"Şəkildə Came məscidi Möminə xatın türbəsindən xeyli hündürdür. Möminə xatın türbəsinin saxlanmış hissəsinin ümumi hündürlüyü 26 metr olduğu üçün Came məscidinin ona nisbətən hündürlüyünü nəzərə alsaq, bu məscidin hündürlüyü 30 metrə yaxın nəhəng bir tikinti olduğu aydınlaşır".*

Sonralar dövlətin ən əhəmiyyətli şəhərlərindən olan Naxçıvanın baş məscidi olmaq etibarilə bu məscidin yanında mədrəsə fəaliyyət göstərirdi. Atabəylər memarlıq kompleksində mədrəsə olduğunu qaynaqlar da təsdiq edirlər. Orta əsrlər zamanı məscidlər, mədrəsələr, əsasən, məscidlər yanında təşkil edildiyi üçün bu mədrəsənin Naxçıvan Came məscidi ilə sıx əlaqədar olması heç bir şübhə doğurmur.

Naxçıvan şəhəri Azərbaycan Atabəyləri dövlətinin paytaxtı olarkən bu məscid paytaxtın əsas məscidi olmaqla bərabər, həm də böyük bir dövlətin baş məscidi rolunu oynamışdır. Eldəniz hökmdarlarının fərmanları ilk dəfə burada səslənmiş, dövrün bir sıra sosial-siyasi və ideoloji məsələləri onun geniş salonunda müzakirə edilmişdir. Atabəylər və Naxçıvan şəhərinin hakimləri burada ibadət etmiş, geniş əhali kütləsi ilə görüşmüş, onları dinləmiş, şikayətlərinə baxmışlar. Burada, həmçinin xütbələr oxunmuş, alimlərin mülahizələri dinlənilmiş, elmi diskussiyalar və müzakirələr keçirilmiş, doğum və ölüm halları qeyd olunmuş, nikahlar bağlanmış, boşanma hallarına baxılmış, məhkəmələr aparılmış, salonlarında geniş əhali kütləsinin iştirakı ilə müharibə və sülh məsələləri müzakirə edilmişdir.

*Ümumiyyətlə, bu məscid dövrün sosial-siyasi və ideoloji həyatında mühüm rol oynamışdır.*

**Fəxrəddin SƏFƏRLİ**
**AMEA-nın müxbir üzvü**

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində hepatit viruslarına qarşı mübarizə və profilaktika tədbirlərinin gücləndirilməsi barədə kollegiya iclası keçirilib.*

## Hepatit xəstəliyinə qarşı mübarizə tədbirləri gücləndirilir

Tədbiri səhiyyə naziri Niyazi Novruzov açaraq bildirib ki, virus hepatitləri və onlarla əlaqədar xəstəliklər üzrə profilaktika, skrininq tədbirlərinin gücləndirilməsi, hepatit virusları əleyhinə vaksinasiya ilə əhatə olunmanın genişləndirilməsi və bu peyvəndin milli immunizasiya proqramlarına inteqrasiyası, eləcə də hepatitə qarşı qlobal cavab tədbirlərinin əlaqələndirilməsi müasir dünya səhiyyəsinin əsas fəaliyyət istiqamətlərindən biridir. Muxtar respublikada da bu istiqamətdə ardıcıl tədbirlər görülür. Ötən il dekabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə bu məsələ geniş müzakirə olunub və konkret tapşırıqlar verilib. Həmin tapşırıqlara əsasən, hazırda səhiyyə müəssisələrində məqsədyönlü tədbirlər həyata keçirilir.

Sonra Naxçıvan Şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin həkimi Zeynəb Mənsumova hepatit xəstələrinin aşkar edilməsi, xəstələrin müalicə tədbirləri, GEM-lər tərəfindən görülən işlər, xəstəliyin qarşısının alınması tədbirləri barədə məlumat verib. Bildirilib ki, qanla keçən infeksiyaların (QİÇS, HİV, eləcə də hepatit B, C) müayinəsinə muxtar respublikada 2006-cı ildən başlanılıb. Əvvəlki illərdə ancaq donorlar müayinəyə cəlb olunurdu. 2009-cu ildən obliqat qruplar, 2012-ci ildən donorlar, obliqat qruplar, bütün əməliyyat olunanlar və hamilələr, hazırda isə qeyd olunanlarla bərabər, nikaha daxil olanlar və könüllü müraciət edənlər müayinələrə cəlb olunurlar. Hazırda əməliyyat aparılan, doğuş həyata keçirilən əksər dövlət və özəl tibb müəssisələrində hepatit B və C virusunun, eləcə də qanla keçən digər infeksiyaların ilkin olaraq ekspres metodla müayinələri aparılır. Ekspres metodla aşkar olunan xəstələr Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə mübarizə şöbəsində əlavə müayinəyə göndərilir. Əməliyyat və doğuş aparılan tibb müəssisələrinin hamısında sterilizasiya tədbirləri təlimata uyğun həyata keçirilir. Ərazi gigiyena və epidemiologiya mərkəzləri tərəfindən yoluxma ocağı dəqiqləşdirilir. Xəstələrlə təmasda olanlar müayinələrə cəlb edilir, maarifləndirici tədbirlər aparılır.

Kollegiya iclasında müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul edilib. Əməliyyat aparılan və doğuş həyata keçirilən dövlət və özəl tibb müəssisə rəhbərlərinə hepatit B və C viruslarının, eləcə də qanla keçən digər infeksiyaların ilkin olaraq ekspres metodla müayinələrinin aparılmasına nəzarətin daha da gücləndirilməsi barədə tapşırıq verilib.

Əməliyyat otaqlarında, stomatoloji kabinələrdə sanitar-gigiyenik və əks-epidemik tədbirlərə, alətlərin, tibbi materialların sterilizasiyasına, yuyucu məhlulların hazırlanması, saxlanması, avtoklavın təlimata uyğun işinə, tibbi tullantıların zərərsizləşdirilməsinə nəzarətin daha da artırılması qərarda öz əksini tapıb.

Kollegiyada Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinə virus B və C hepatit xəstələrinin registrinin yaradılması, onların bölgələr üzrə sayının müəyyənləşdirilməsi barədə tapşırıq verilib. Həmin tapşırığa əsasən, rayon mərkəzi xəstəxanalarının yoluxucu xəstəliklər şöbələri ilə birgə hər ay bölgələr üzrə aşkar olunan virus B və C hepatitli, eləcə də qanla keçən digər ilkin xəstələr haqqında ərazi gigiyena və epidemiologiya mərkəzlərinə müntəzəm məlumat veriləcək, aşkar olunan ilkin xəstələrin siyahısı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə təqdim ediləcəkdir. Mərkəzdə virus B və C hepatit xəstələrinin müayinə və müalicə tədbirləri xüsusi həkim komissiyasının birgə razılığı əsasında təşkil olunacaqdır.

Gözəllik salonlarında, bərbərxanalarda dezinfeksiya və sterilizasiya tədbirləri, səhiyyə müəssisələrində tibbi tullantıların zərərsizləşdirilməsi, yuyucu məhlulların hazırlanması və saxlanılması mütəmadi xarakter daşıyacaqdır.

**Naxçıvan Muxtar Respublikası**
**Səhiyyə Nazirliyinin mətbuat xidməti**

# Şəhid hərbçimiz Ordubadda son mənzilə yola salınıb







*Fevralın 24-dən 25-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin törətdiyi irimiqyaslı təxribatın qarşısını alarkən qəhrəmancasına şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçusu, 1988-ci il təvəllüdlü Haşımlı Tural Əbdül oğlunun nəşi fevralın 28-də Naxçıvana gətirilib.*

Naxçıvan Beynəlxalq Hava Limanında qəhrəman şəhidimizin nəşini minlərlə naxçıvanlı qarşılayıb. Yüzlərlə avtomobildən ibarət karvanın müşayiəti ilə şəhidin cənazəsi doğulduğu Ordubad rayonuna aparılıb. Ordubad şəhərinin girişindən şəhidin evinə və Ordubad şəhərindəki Şəhidlər xiyabanına kimi minlərlə muxtar respublika sakini yürüş edib. Yürüş iştirakçıları "Qarabağ bizimdir, bizim olacaq!", "Şəhidlər ölməz, Vətən bölünməz!" kimi şüarlar səsləndiriblər.

Şəhidin dəfn mərasimində dövlət və hökumət nümayəndələri, Ordubad Rayon İcra Hakimiyyətinin rəhbərliyi və əməkdaşları, Əlahiddə Ümumqoşun Ordusunun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yüksəkrütbəli hərbçiləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, şəhidin döyüş yoldaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

İzdihamlı mərasimdə çıxış edənlər şəhidin ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, Vətən uğrunda şəhid olan qəhrəman övladlarımızın qanının yerdə qalmayacağını, düşməndən amansız qisas alınacağını, torpaqlarımızın tezliklə işğaldan azad olunacağını bildiriblər.

Şəhidin ruhuna dualar oxunub. Azərbaycan Respublikasının Dövlət Himni və yaylım atəşinin müşayiəti ilə şəhid Tural Haşımlı dəfn edilib, məzarı üstünə əkillər və tər qərənfillər düzülüb. Tabutun üzərindəki üçrəngli Azərbaycan bayrağı şəhidin atasına təqdim edilib.

**Xəbərlər şöbəsi**

# Şəhidliyin mübarək!

## *Vətən fədaisi Tural Haşımlıya məktub*



Salam adaş!

Biz həyatda bir-birimizi heç vaxt görməmişik, tanışlığımız yoxdur. Sən öz igidliyinlə, qəhrəmanlığınla özünü hər kəsə tanıtdın. Sən Vətənimizin ərazi bütövlüyü uğrunda mübarizənlə elə yüksək bir mərtəbəyə ucalmısan ki, o ucalıq hər kəsə qismət olmur. Müqəddəs dinimizdə də şəhidlik ən uca mərtəbə hesab edilir. Böyük İslam Peyğəmbəri buyurub ki, cənnətə daxil olan heç kəs hətta bütün dünyanın nemətləri ona verilsə belə, cənnətdən çıxıb bir daha bu dünyaya qayıtmaq istəməz. Yalnız şəhid Allahdan o qədər mükafat görər ki, bunların əvəzini vermək üçün 10 dəfə dünyaya qayıdıb şəhid olmağı arzulayar.

Biz rahat iş otaqlarımızda, isti evimizdə yaxınlarımızla deyib-gülərkən, sən ön xətdə Vətənimizi qoruyurdun. Biz növbəti iş günü hansısa tapşırığı yerinə yetirmək üçün gecə bir saat yuxumuzdan kəsərkən öz-özümüzə deyindiyimiz vaxt sən Vətəni qorumaq üçün günlərlə yatmırdın.

Sən fevralın 24-dən 25-nə keçən gecə şəhid oldun. Bir gün sonra xalqımız Xocalı soyqırımının 25-ci ildönümünü qeyd edəcək, Xocalı şəhidlərini anacaqdı. Bu xalq bir daha Xocalı faciəsini yaşamasın, analarımız, bacılarımız işgəncələrə məruz qalmasın, körpələrimiz öldürülməsin deyə sən orda idin.

Sizin kimi igid oğullarımızın sayəsində sərhədlərimiz etibarlı qorunur, müstəqilliyimiz daha da möhkəmləndirilir.

Sən xoşbəxtsən, ona görə ki, Vətən yolunda canını qurban vermisən. Ona görə ki, məğlub deyil, qalib ordunun zabiti idin, müzəffər ordunun şəhidisən.

Vətəni qorumağın mükafatını şəhid olaraq aldın. Heç şübhəsiz, yerin cənnətdir. Çünki işğal məqsədilə kiminsə torpağında, ərazisində deyildin. Sən öz torpağını, Vətənini müdafiə edirdin. Arzuların var idi. Heç kimin şübhəsi yoxdur ki, o arzulardan biri üçrəngli bayrağımızı Xankəndidə dalğalandırmaq idi. Yoxsa niyə dəfələrlə müraciət edib ön xətdə getmək istəyərdin ki?

Sən doğulub boya-başa çatdığın Naxçıvanın, Azərbaycanın incisi Ordubadın, təhsil aldığın Heydər Əliyev adına Hərbi Liseyin adına layiq xidmət etdin.

Dünən bir neçə dostunla söhbətləşirdim. Həmişə deyirmişsən ki, böyüdüyüm ailədə, təhsil aldığım hərbi liseydə mənə Vətənə sədaqətlə xidmət etməyi öyrədiblər. Vətənə sədaqətini, sevgini ölümsüzlüyə qovuşmaqla sübuta yetirdin. Xidmət etdiyin zaman səni Lənkərana göndərsələr də, öz ərizənlə yenidən ön cəbhəyə qayıdanda Vətənə olan sevgini, məhəbbətini döyüş yoldaşların, hər kəs hiss etmişdi.

Gözün arxada qalmasın. Əmin ol, sənin kimi igidlərin xidmət etdiyi Ordu tezliklə işğal altındakı torpaqlarımızı düşmən tapdağından azad etməklə bütün şəhidlərimizin qisasını alacaq. Bilirəm ki, rahat deyilsən, çünki uğrunda can verdiyin Vətən torpağının bir hissəsi hələ işğal altındadır. Qüdrətli Ordumuz çox tezliklə o torpaqları azad edəcək, o zaman sənin və bütün şəhidlərimizin ruhu rahatlıq tapacaq.

Gözün arxada qalmasın. Vətənimizdən nigaran olma.

Necə ki övladının şəhid olduğunu eşidəndə qara yaylığını açıb ağ kəlağayı örtən, şəhid oğlunun şəklini evinin divarından asıb "mübarək olsun", – deyən analarımız, "Vətən sağ olsun", – deyən atalarımız, hər an sənin qisasını almağa hazır olan yüz minlərlə yeniyetmə və gəncimiz var müqəddəs torpağımız həmişə etibarlı qorunacaq, Azərbaycan daha qüdrətli dövlətə çevriləcəkdir.

Əmin ol, Azərbaycanda hər gün bir əsgər doğulur.

Sən hər bir Azərbaycan gəncinin idealısan. Sənin yerində olmaq istəyən minlərlə gənc var. Biz səninlə fəxr edirik!

Şəhidliyin mübarək!

**Tural SƏFƏROV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 17 mart 2017-ci ildə saat 15[00]-da hərraca çıxarılacaq dövlət nəfinə müsadirə edilmiş əmlaklar haqqında məlumat

| Sıra №-si | Müsadirə edilən əmlakın adı | Ölçü vahidi | Miqdarı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 10 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | Mənşəyi məlum olmayan və müxtəlif markalı mobil telefon | ədəd | 10 | 362.90 | 36.29 |
| 2. | AZERCEL və BAKCEL danışıq kartı | ədəd | 2 | 9.00 | 0.90 |
| 3. | Kustar üsulla hazırlanmış divar saatı | ədəd | 6 | 36.00 | 3.60 |
| 4. | "ZER" markalı SALK 0106 dinamiki ilə birlikdə səsgücləndirici | ədəd | 1 | 40.00 | 4.00 |
| 5. | "STAR" markalı soyuducu | ədəd | 1 | 195.00 | 19.50 |
| 6. | "PHİLİPS" markalı televizor | ədəd | 1 | 340.00 | 34.00 |
| 7. | Televizoraltı | ədəd | 1 | 136.50 | 13.65 |
| 8. | "ARÇELİK" markalı paltaryuyan | ədəd | 1 | 370.00 | 37.00 |

Məlumat dərc olunduğu gündən hərracda iştirak etmək istəyən hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakla tanış olmaq və sifariş vermək üçün Auksion Mərkəzinə müraciət edə bilərlər. Hərraclarda alıcı hesab edilən sifarişi və digər zəruri sənədləri təqdim etmiş, satılan əmlakın ilkin satış qiymətinin 10 faiz həcmində behi Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin AZ21NABZ12360100000000005944 nömrəli hesabına ödəmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk prospekti 42) 14 mart 2017-ci il tarixdə, hərrac keçirilməsinə ən azı 3 bank günü qalanadək qəbul olunacaqdır:

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;*
*- Maliyyə Nazirliyinin hesabına ödənilmiş 10 faiz behin hesaba ödənilməsini təsdiq edən ödəmə sənədinin surəti.*

Hərrac 17 mart 2017-ci il tarixdə, saat 15[00]-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

# Pauerliftinq üzrə yarış keçirilib



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Paralimpiya Federasiyasının təşkilatçılığı ilə paralimpiyaçılar arasında idmanın pauerliftinq növü üzrə yarış keçirilib.*

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən yarışda fiziki imkanları məhdud idmançılar iki çəki dərəcəsində – 75 kiloqrama kimi və 75 kiloqramdan artıq çəki dərəcələrində mübarizə aparıblar. Yarışın keçirilməsində əsas məqsəd məhdud fiziki imkanlı şəxslərin muxtar respublikanın idman həyatında daha fəal iştirakına və sosial reabilitasiyasına nail olmaqdır.

Yarışın yekun nəticəsinə əsasən, Turan Hüseynov 75 kiloqram çəki dərəcəsinə kimi idmançıların mübarizəsində qalib adını qazanıb. Telman Şirinov ikinci, Xəyal Abdullayev üçüncü olub. 75 kiloqramdan artıq çəki dərəcəsində isə Eldar Əliyev birinci yerə çıxıb. Digər iki pillədə İlqar Mərdanlı və Sərvər Əliyev qərarlaşıblar.

Sonda qaliblərə Paralimpiya Federasiyasının hədiyyələri, digər yarış iştirakçılarına isə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin diplomları təqdim edilib.

# Sərrast atıcılar müəyyənləşib

Şərur rayonunda fəaliyyət göstərən Atıcılıq Klubunda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Atıcılıq Federasiyasının birgə təşkilatçılığı ilə tir atıcılığı üzrə "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında keçirilən muxtar respublika açıq birinciliyinə yekun vurulub. Birincilikdə 20 idmançı mübarizə aparıb.

Əvvəlcə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov və Atıcılıq Federasiyasının sədr müavini Fərhad Əliyev çıxış edərək tədbirin məqsədi haqqında məlumat veriblər, iştirakçılara uğurlar arzulayıblar. Sonra yarışa start verilib.

Yekun nəticəyə əsasən, qalib adını Bəhruz Əsədli qazanıb. Digər iki pillədə isə Vüsal Əsədov və Nərmin Nadirova qərarlaşıblar.

Qaliblərə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin diplomları təqdim olunub.

# Güləş birinciliyinə yekun vurulub



*Cəhri kənd 1 nömrəli tam orta məktəbin idman zalında "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında sərbəst güləş üzrə birincilik keçirilib.*

Babək Rayon Uşaq-gənclər idman məktəbinin təşkilatçılığı ilə keçirilən yarışda 6 komanda iştirak edib. İdmançılar 9 çəki dərəcəsində (29, 32, 35, 42, 46, 50, 54, 58 və 63 kiloqram) mübarizə aparıblar.

Olimpiya sistemi üzrə keçirilən yarışın yekun nəticəsinə əsasən, final görüşündə Cəhri və Zeynəddin komandalarının güləşçiləri üz-üzə gəliblər. Daha bacarıqlı olan Cəhri güləşçiləri birinciliyin qalibi olublar. Üçüncü pillədə isə Nehrəm komandası qərarlaşıb.

Sonda qalib komandaların idmançılarına diplomlar təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 161